

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

*Qəzet 1921-ci ildən çıxır*

Sayı: 51 (23.213)

*14 mart 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də VII Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı Mərkəzin coğrafi əhatə dairəsinin genişlənməsinin, Bakı Forumunun ardınca dünyanın müxtəlif ölkələrində tədbirlər keçirməsinin önəmini qeyd edib

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikasının xarici işlər nazirinin xüsusi köməkçisi Vu Haylonqu qəbul edib.



*İqtisadiyyat inkişaf edib, texnoloji yeniliklər insan həyatına sürətlə tətbiq olunduqca rifahımızı artıran, eləcə də daha artıq inkişaf üçün yeni fürsətlər açan sahələrə də maraq çoxalır. Ənənəvi ticarətə alternativ olaraq sürətlə yayılıb inkişaf edən elektron ticarət də bir çox üstün cəhətlərinə görə bu sahələr arasındadır.*

## Elektron ticarət dövriyyəsinin artırılması günün tələbidir




Hazırda bütün dünyada elektron ticarətə maraq böyükdür. İnkişaf etmiş ölkələrdə ticarət əməliyyatlarının yarıdan çoxu internet vasitəsilə, yəni onlayn üsulla həyata keçirilir. Təsadüfi deyil ki, hazırda dünyanın ən varlı iş adamı da bir elektron ticarət şirkətinin sahibidir. Əksər alıcıların tanıdığı bu şirkətin, eləcə də bir çox digər elektron ticarət saytlarının vasitəsilə hər il yüz milyardlarla ABŞ dolları həcmində kiçik düymədən tutmuş, elektronik cihazlara, gözəl, dəbli geyimlərə və yaxud ehtiyat hissələrinədək hər cür mallar alınıb satılır. Nəticədə, ABŞ-da elektron ticarət bu ölkənin ümumi mal və xidmət dövriyyəsinin böyük bir hissəsini, Avropa ölkələrində isə yarıdan çoxunu təşkil edir.

İlk dəfə 1960-cı ildə tətbiq olunan və internetin yaranması ilə daha da geniş miqyasda yayılmağa başlayan elektron ticarət ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında da sürətli internet və ödəniş sistemləri infrastrukturunun yaradılması ilə populyarlıq qazanıb. Bu gün elektrik enerjisi, su, qaz və digər kommunal xidmətlərin elektron üsulla çox rahatlıqla haqqını ödədiyimiz elektron ticarət platforması ölkəmizdə ilk olaraq 2008-ci ildən tətbiq olunmağa başlayıb. Hazırda dövlət və özəl qurumlar tərəfindən istehsal olunan çox sayda mal və xidmətləri elektron qaydada ala bilirik.

Elektron ticarət 2005-ci ildən ölkəmizdə qüvvədə olan "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən belə ticarət informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür. Başqa sözlə, burada hər hansı xidmət və ya məhsul satıcı ilə birbaşa ünsiyyətdə olmadan, internet saytları vasitəsilə satın alına bilir. Bunun üçün müştəri satıcının veb səhifəsinə daxil olaraq almaq istədiyi məhsul və ya xidməti seçib, elektron şəkildə haqqını ödəyib onu əldə edə bilər.

Hazırda istər elektron ticarət, istərsə də istənilən digər elektron ödənişlər üçün muxtar respublikamızda çox genişmiqyaslı işlər görülüb, etibarlı infrastruktur yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" bu sahədə çox geniş spektrdə tədbirlərin həyata keçirilməsini təmin edib. Proqramın tədbirlər planının 3.7-ci bəndində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Sahibkarlar Konfederasiyasına muxtar respublikada istehsal olunan mal və məhsulların, milli dəyərləri əks etdirən əşyaların, əl işlərinin elektron kataloqunun hazırlanması və elektron satışlarının təşkil edilməsi öz əksini tapıb. Şübhəsiz, bu dövlət proqramında və həmin bənddə qarşıya qoyulmuş vəzifələr muxtar respublikanın iqtisadi potensialının daha da artırılması ilə yanaşı, həm də xarici valyuta qazanılmasına imkan yaradan malların ixracı və eləcə də ölkəmizin və muxtar respublikamızın tanıdılması kimi mühüm məsələlər baxımından çox əhəmiyyətlidir.

Bu məsələ ilə bağlı yuxarıda adıçəkilən qurumlara göndərdiyimiz sorğuya cavab olaraq aldığımız məktublarda dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin icrası ilə əlaqədar həyata keçirilmiş geniş tədbirlərlə yanaşı, elektron ticarət sahəsində də müəyyən işlərin görüldüyü ifadə olunur. Belə ki, muxtar respublikada istehsal olunan mal və məhsulların, milli dəyərləri əks etdirən əşyaların, əl işlərinin internet kataloqunun hazırlanması və elektron satışlarının təşkil edilməsi istiqamətində 37 ixracpotensiallı müəssisəyə aid 339 çeşiddə məhsulun və 484 əl işi sənət əsərinin internet kataloqunun hazırlanaraq *biznesmerkez.info.az, nsk.org.az* və *pronak.az* saytlarında yerləşdirilib. Həmçinin 2018-ci il ərzində "Xalq Yaradıcılığı Emalatxanası"nın Xalçaçılıq bölməsində toxunmuş müxtəlif ölçülərdə xalçalar elektron satış məqsədilə saytlarda yerləşdirilib.

Bu məlumatlara əsaslansaq, deyə bilərik ki, muxtar respublikada elektron ticarətin genişləndirilməsi üçün yaxşı imkanlar vardır. Odur ki, yaradılmış şəraitdən istifadə olunaraq elektron ticarət yolu ilə daha çox mal və məhsulun qlobal ticarət şəbəkəsinə çıxarılması, bunun üçün yaradılmış saytların daim işlək olması və vaxtında yenilənməsi günün tələbidir.

✍ **Əli CABBAROV**

## Dövlət qulluğu sahəsində qanunvericiliyin tətbiqi diqqətdə saxlanılıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri fevral ayında da davam etdirmiş, dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilmiş, 3 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 4 qərarı ləğv edilmişdir.

Komissiyanın İş planına uyğun olaraq "Dövlət qulluqçularının etik davranış qaydaları" və "Dövlət orqanlarında vətəndaşların müraciətləri və sənədlərlə işin aparılması qaydaları" mövzularında 1032 dövlət qulluqçusunun iştirak etdiyi 8 maarifləndirici seminar keçirilmişdir. Şahmatın tədrisinin keyfiyyətinin yaxşılaşdırılması və müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası üzrə test imtahanları keçirilmiş, imtahanlarda 445 müəllim iştirak etmiş, onlardan 404-ü müvafiq keçid balını toplamışdır.

Muxtar respublikada ilk dəfə olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində vakant vəzifələrin tutulması üçün 6 noyabr 2018-ci il tarixdə elan edilmiş müsabiqənin test mərhələsi keçirilmiş, müsabiqəyə çıxarılan 38 vakant vəzifənin tutulması üçün 10 nəfər sənəd təqdim etmiş, 5 namizəd keçid balını toplamışdır. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti və Ali Məclisin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada vakant şöbə müdiri vəzifələrinin tutulması üçün 3 namizədin iştirakı ilə test imtahanları keçirilmiş, müvafiq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş 4 daxili müsahibədə komissiya nümayəndəsinin iştirakı təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## 510 daşınmaz əmlak dövlət qeydiyyatına alınıb

Muxtar respublikada əmlak və torpaq idarəçiliyinin müasir əsaslarla qurulması istiqamətində qarşıda duran vəzifələrin icrası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən fevral ayında da diqqətdə saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planına uyğun olaraq 9 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, Tumbul kəndində ailə təsərrüfatlarında əkin atlaslarına uyğun əkinlərin aparılması ilə bağlı maarifləndirici tədbir keçirilmişdir.

Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində daşınmaz əmlak obyektlərinin pasportlaşdırılması başa çatdırılmış, 65 fərdi yaşayış evinin mülkiyyətçisinə hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış verilmişdir. Naxçıvan Muxtar Respublikasında ümumi və suvarılan torpaqların torpaq mülkiyyətçiləri, istifadəçiləri arasında bölüşdürülməsi və torpaqlardan istifadə edilməsinə dair torpaq balansı tərtib edilmişdir. Şərur rayonunun Yuxarı Aralıq kəndində isə planaalma işləri başa çatdırılmış, Babək rayonunun Cəhri kəndində planaalma davam etdirilmiş, ay ərzində 1999 daşınmaz əmlak obyekti plana alınmışdır. Naxçıvan şəhər inzibati ərazi vahidinin tərkibinə daxil olan 1 nömrəli sahə inzibati ərazi dairəsində mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritəsi hazırlanmışdır.

Fevral ayında 510 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınmış, 384 texniki sənəd hazırlanmış, yeni yaranmış 55 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 83 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Naxçıvan şəhərində daşınmaz əmlak obyektlərinin ünvanlarının dəqiqləşdirilməsi davam etdirilmiş, 17 küçədə ünvan lövhələrinin və giriş nömrə nişanlarının quraşdırılması başa çatdırılmışdır. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 52 vətəndaşın müraciətinə baxılmış, 44 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri görülür

2019-cu ilin fevral ayında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə monitorinq və yoxlamalar aparılmışdır.

Bu zaman əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar olunması, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair bu kimi operativ vergi nəzarətinin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 23 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür.

Operativ vergi nəzarəti tədbirləri zamanı 12 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması müəyyən edilmişdir. Həmçinin 11 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları aşkarlanmış və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***



*Kəngərli rayonu 15 il əvvəl – 2004-cü il martın 19-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzalaması ilə yaradılıb. Yeni inzibati ərazinin təşkil edilməsində məqsəd idarəçilikdə təkmilləşmənin, koordinasiyanın mərkəzləşdirilməsi funksiyasını daşısa da, bu rayonun yaradılması həm də müstəqilliyimizin Naxçıvana qazandırdığı töhfənin bir nümunəsi kimi diqqəti çəkir. Hansı ki müstəqilliyimizin bərpasına gedən tarixi yolun ilk cığırları məhz muxtar respublikamızda atılmış, muxtariyyətimizin bugünkü parlaq səhifələrinin ilk sətirləri burada yazılmışdır.*

**Naxçıvan Muxtar Respublikası – 95**

# Müasir Kəngərli muxtariyyət tariximizin müstəqillik dövrünün böyük quruculuq salnamələrindəndir

Bu tarixi proses bir daha onu göstərdi ki, qurub-yaratmaq əzmində olan xalqımız üçün müstəqillik hər şeydən qiymətlidir. Əgər bunu əldə edə bilməsəydik, bu gün qürurla ölkəmizin, muxtar respublikamızın hərtərəfli inkişafından, vətəndaşlarımızın rahat və firavan həyatından danışa bilməzdik. Müstəqillik bizə layiq olduğumuzu və edə biləcəklərimizi həyata keçirmək üçün yeni ruh verdi. Haqqında söhbət açacağımız Kəngərli rayonu da müstəqil Azərbaycanın müstəqil qərarları ilə həyata vəsiqə qazanmış və sürətlə inkişaf edən bir bölgəsidir.

Bu il yaradılmasının 15 illiyi tamam olan Kəngərli rayonu həm də Naxçıvanın dövlət idarəçiliyi tarixində böyük bir nəslin – kəngərlilərin haqqını tarix qarşısında tanımaq və gələcək nəsillərə tanıtmaq kimi milli iradənin təzahürüdür.



Yeni bir rayon yaratmaq, bu rayonu lazımi infrastrukturla təmin etmək yalnız tikinti-quruculuq tədbirləri ilə yekunlaşmır. Çünki rayon statuslu inzibati ərazi vahidlərinin təşkili idarəçilik mexanizmlərinin yaradılması və formalaşdırılmasına əsaslanmaqla uzun illərin sərf olunduğu bir prosesdir. Ötən dövr onu göstərdi ki, Heydər Əliyev siyasi yolunun layiqincə davam etdirilməsi muxtar respublikada istənilən layihənin həyata keçirilməsinə imkan verir. Bu fikrin təsdiqini biz bu gün Kəngərli rayonunun simasında bir daha görürük. Çünki Kəngərli rayonu müstəqillik dövründə muxtariyyət tariximizin ən böyük layihəsidir.

Geriyə baxdıqda, tarix üçün çox qısa bir dövr olsa da, 15 ildə rayonda nə işlər görülməyib ki? Yuxarıda qeyd etdiyimiz qanuna əsasən əvvəlcə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz, Çalxanqala, Xıncab, Şərur rayonunun isə Qarabağlar, Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yurdçu və Yeni Kərki kənd inzibati ərazi dairələrini əhatə edən ərazilər yeni yaradılmış rayona daxil edildi. Qanunun digər bəndinə görə isə Qıvraq kəndinə qəsəbə statusu verilərək rayon mərkəzinə çevrildi. Bu həmin dövr idi ki, dövlət başçısı cənab İlham Əliyev ölkəmizə rəhbərliyə yeni başlamışdı. Regionların sosial-iqtisadi inkişafına dair ilk Dövlət Proqramı (2004-2008-ci illər) yenicə imzalanmışdı. Qarşıda ölkəmizin, eləcə də muxtar respublikamızın inkişafı üçün mühüm layihələr həyata keçiriləcək və gənc Kəngərli rayonu da bu inkişafdan öz payını alaraq gözəl bir rayona çevriləcəkdi. Bu tarixi qərarın verilməsindən iki il sonra – 2006-cı ilin iyul ayında Kəngərli Rayon İcra Hakimiyyətinin inzibati binasının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu rayonun yaradılması ilə bölgədə bir çox məsələlər həll olunmuşdur. Artıq rayonun öz büdcəsi var, yeni yaradılmış idarələrdə mindən çox iş yeri açılmışdır. Beləliklə, bu rayonda yaşayan əksər ailələrin heç olmasa bir üzvü işlə təmin edilmişdir. Onların işlə təmin edilməsi ailədə də sabitliyin yaranması deməkdir. Yeni rayonun yaradılması bu bölgənin iqtisadiyyatına, gələcəkdə onun daha da möhkəmlənməsinə, ailələrin məskunlaşmasına kömək edəcəkdir. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının səviyyəsinə çatacaqdır”.***

Ötən 15 ildə Kəngərli rayonunun əsas inkişaf göstəricilərindən biri əhalisinin sayının 7 min nəfərə yaxın artaraq 32 minə çatması olmuşdur. Bundan başqa, rayonda sənaye məhsulu 16, kənd təsərrüfatı məhsulu 7, investisiya qoyuluşu 50, rabitə xidmətlərinin həcmi 7 dəfə, əkin sahəsi isə 54 faiz artmışdır. Bütün bunlar rayonun inkişafının göstəriciləridir. Rayonun yaradılmasının 15-ci ildönümündə isə sakinlərlə görüşündə Ali Məclisin Sədri rayonun keçdiyi tarixi inkişaf yoluna nəzər salaraq demişdir: ***“Ötən dövrdə rayonun ictimai-siyasi həyatında böyük dəyişikliklər baş vermiş, geniş quruculuq işləri görülmüş, müasir rayon formalaşmışdır. Aparılan abadlıq-quruculuq işlərinin davamı olaraq bu gün rayonda su-kanalizasiya sistemləri qurulur, meliorasiya tədbirləri həyata keçirilir, tarixi abidələr bərpa olunur, məktəblər tikilir, yollar çəkilir, rayon ərazisindəki hərbi hissələr müasir xidmət və yaşayış şəraiti ilə təmin olunur. Görülən bu işlər rayonun inkişafını daha da sürətləndirəcək, Kəngərli Azərbaycanın qabaqcıl rayonları sırasında öz yerini tutacaqdır”.***

Ali Məclisin Sədri çıxışında rayonun formalaşmasında hər bir sakininin də əməyi olduğunu, dövlət qayğısı və birgə fəaliyyətin rayonun inkişafını təmin etdiyini vurğulamışdır.

Ali Məclis Sədrinin hər iki çıxışında diqqəti cəlb edəcək bir məqam var. Əgər ilk çıxışda Kəngərli rayonunun qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının səviyyəsinə çatacağı vurğulanırsa, növbəti çıxışda bölgənin Azərbaycanın qabaqcıl rayonları sırasında öz layiqli yerini tutacağına böyük əminlik ifadə olunur. Bu onun göstəricisidir ki, Kəngərlidə görülən hər bir iş məqsədyönlü xarakter daşıyır və rayonda inkişafın davamlılığı bundan sonra da təmin ediləcəkdir.

Bir qəsəbə və 10 kəndi özündə birləşdirən Kəngərli rayonunda indiyədək həyata keçirilən infrastruktur tədbirlərini bir yazıya sığdırmaq çətin olsa da, görülmüş işlərdən yalnız ümumi bəhs etmək mümkündür. Belə ki, ötən dövrdə rayon mərkəzi olan Qıvraq qəsəbəsində dövlət qurumları üçün bir-birindən gözəl inzibati binalar, mədəniyyət və istirahət parkı, yaşayış binası, mədəniyyət evi və digər obyektlər tikilib istifadəyə verilib. Eyni zamanda rayon mərkəzi ilə bütün yaşayış məntəqələri arasında avtomobil yolları yenidən qurulub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” 2011-ci il 2 sentyabr tarixli Sərəncamına uyğun olaraq yenidən qurulan yol, yaşayış məntəqələri arasında daha tez, asan və təhlükəsiz nəqliyyat əlaqəsinin qurulmasına öz töhfəsini verib. Uzunluğu 39 kilometr olan və 5 kənd yaşayış məntəqəsini birləşdirən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qarabağlar-Yurdçu-Qıvraq (Xıncab da əlavə yolla birləşməklə) dairəvi avtomobil yolu adıçəkilən kəndlərə gediş-gəlişi xeyli asanlaşdırıb. Eyni zamanda Naxçıvan-Sədərək magistral yolunun Kəngərli rayonundan keçən hissəsi 2010-cu ildə istifadəyə verilib. Bundan əlavə, rayonun bütün yaşayış məntəqələrində kompleks quruculuq və abadlıq işləri aparılıb, bütövlükdə, 79,9 kilometr yeni yol salınıb, 6 körpü, 2 meqavatlıq Günəş Elektrik Stansiyası qurulub, tarixi abidələrə, eləcə də dünya əhəmiyyətli memarlıq nümunəsi olan Qarabağlar Türbə Kompleksinə ikinci həyat verilib. Ümumilikdə, indiyədək rayonda 5382 şagird yerlik 12 məktəb, 224 yerlik uşaq bağçası tikilib, Mədəniyyət Sarayı, 2 muzey, Şahmat məktəbi, 11 tibb müəssisəsi, 2 uşaq musiqi məktəbi, 10 kənd və 10 xidmət mərkəzi istifadəyə verilib. Rayon ərazisində 5 su nasos stansiyasının, eləcə də 1140 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsinin qurulması, Böyükdüz kəndində toxumçuluq təsərrüfatının yaradılması yüzlərlə hektar əkilməyən torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasına səbəb olub. Rayonda yeni sənaye müəssisələrinin qurulması da diqqət mərkəzində saxlanılıb.





Belə ki, son illərin quruculuq ünvanları olan müasir sənaye kompleksi, sement zavodu və daş məhsulları müəssisəsi muxtar respublikanın ən mühüm sənaye obyektləri sırasındadır. Həm sənaye müəssisələrində, həm də son illər Kəngərli rayonunda qurulan onlarla kiçik istehsal və xidmət sahələrində yüzlərlə iş yeri açılıb.

Bir neçə gün bundan əvvəl isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Kəngərli rayonunun yaranmasının 15-ci ildönümü qeyd olunmuş, Qıvraq qəsəbəsində yeni yaşayış binasının açılışı olmuşdur. Açılış mərasimində iştirak edən Ali Məclisin Sədri demişdir: ***“Rayonun yaradılması və inkişaf etdirilməsi üçün uzun illər tələb olunur. Lakin yaranmasından qısa müddət keçməsinə baxmayaraq, Kəngərli rayonu tam formalaşmış və inkişaf etmişdir. Rayonun yaranmasının 15-ci ildönümündə 48 mənzilli yeni yaşayış binasının istifadəyə verilməsi mühüm nailiyyətdir və rayonun yubileyinə layiqli töhfədir. Binanın ilk sakinləri Azərbaycan dövlətinin suverenliyi və ərazi bütövlüyünün qorunmasında xidməti vəzifələrini layiqincə yerinə yetirmiş və sağlamlığını itirmiş şəxslərdir. Bu da mühüm əhəmiyyət daşıyır. Çünki dövlət qayğısı ilə tikilmiş binanın ilk sakinləri dövlət qarşısında xidməti borclarını ləyaqətlə yerinə yetirmiş insanlardır”.***

Qeyd edək ki, zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan binada 48 mənzil vardır. Mənzillərdən 24-ü üçotaqlı, 24-ü isə ikiotaqlıdır. Üçotaqlı mənzillərin ümumi sahəsi 93 və 78, ikiotaqlı mənzillərin ümumi sahəsi 59 və 62 kvadratmetrdir. Mənzillər müasir kommunal şəraitlə təmin olunmuş, hər birinə daimi su xətti çəkilərək zirzəmidə 2 ədəd 8 tonluq su çənləri qoyulmuş, mərkəzləşdirilmiş antena sistemi və 2 lift quraşdırılmışdır. Zirzəmidə mühəndis-texniki tələblərə uyğun inşa olunmuş mülki müdafiə və səfərbərlik ehtiyatı anbarı yerləşir. Həmçinin burada xidmət mərkəzi də fəaliyyət göstərir. Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, dərzi, ərzaq və təsərrüfat malları mağazaları, çəkməçi dükanları vardır. Burada 6 sakin işlə təmin edilmişdir. Bundan əlavə, binanın həyətində abadlıq işləri aparılmış, istirahət guşəsi yaradılmış, 1500 metr uzunluğunda yeni avtomobil yolu salınmış, 1510 metr su xətti çəkilmiş, 250 kilovoltluq transformator yarımstansiyası, müasir işıqlandırma və suvarma sistemləri qurulmuşdur. Yeni yaşayış binasında hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlığını itirmiş bir nəfərə üçotaqlı, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı əlil olmuş şəxsə isə ikiotaqlı mənzil təqdim olunmuşdur.



Eyni zamanda yeni mənzillə təmin olunanlara xalça hədiyyə edilmişdir. Həmin gün Ali Məclisin Sədri Kəngərli Rayon Dövlət Sığorta Agentliyinin yeni binasında yaradılan şəraitlə də tanış olmuşdur.

**Bəli, bu gün Kəngərli rayonu muxtar respublikanın inkişaf etmiş rayonları sırasındadır. Hazırda Kəngərlinin ən ucqar kəndlərində belə, müasir infrastruktur yaradılıb, bütün ünvanlar telefonlaşdırılıb, sürətli internet şəbəkəsi qurulub. Yaşayış məntəqələrində ən müasir məktəblər, mədəniyyət və tibb müəssisələri tikilərək istifadəyə verilib. Qeyd edilənlər müstəqilliyimizin bizə töhfəsi olmaqla yanaşı, həm də hərtərəfli inkişaf edən müasir Naxçıvanımızın bir bölgənin simasında təntənəsidir.**

**Səbuhi HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikasının 95 illiyinə həsr olunmuş tədbir

***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikasının 95 illiyinə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamına əsasən muxtar respublikanın 95 illik yubileyinin geniş qeyd edilməsi ilə bağlı müxtəlif silsilə tədbirlər keçirilir.





Naxçıvanın muxtariyyət tarixindən bəhs edən nazir qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə, eləcə də bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi və mədəni yüksəlişinə, hərtərəfli inkişafına da layiqli töhfəsini verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə 20 ildən artıq dövrdə qədim diyarımızın möhtəşəm inkişaf və tərəqqi yolu keçdiyini vurğulayan Natəvan Qədimova bildirib ki, Ali Məclis Sədrinin qayğısı ilə ötən dövrdə muxtar respublikamızda mədəniyyətin inkişafı, milli dəyərlərimizin təbliği istiqamətində də mühüm işlər görülüb. 70-dən artıq dünya əhəmiyyətli abidə təmir və bərpa olunub. Bu illər ərzində 15-dən çox muzey yaradılıb, yeni uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri, onlarla digər mədəniyyət müəssisəsi istifadəyə verilib.

Diqqətə çatdırılıb ki, qədim diyarımızda tarixi-mədəni irsin qorunub saxlanması sahəsində görülən işlər öz bəhrəsini verib. “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı” tədbirləri 2018-ci ildə uğurla keçirilib, “Yallı” (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib.

Naxçıvan Muxtar Respublikası bu gün öz inkişaf və intibahının yeni mərhələsini yaşayır. Naxçıvan beynəlxalq tədbirlərin, idman yarışlarının, elmi konfransların keçirildiyi bir məkana çevrilib.

Tədbirin bədii hissəsində Xaqani Əliyevin “Ehsan xan Kəngərli” tarixi dramı göstərilib. “Ehsan xan Kəngərli” tarixi dramı XIX əsrin əvvəllərində Naxçıvan xanlığında baş verən ictimai-siyasi hadisələri əks etdirir. Rusiya-İran müharibəsi və Naxçıvanın ruslar tərəfindən işğal olunması əsərin əsas süjet xəttini təşkil edir.

İlk dəfə Naxçıvan teatrında səhnəyə qoyulan “Ehsan xan Kəngərli” tamaşasında Naxçıvan xanlığının düşdüyü çətin vəziyyətdən çıxış yolu axtaran Ehsan xanın siyasi düşüncələri və xüsusən ermənilərin Naxçıvana yerləşdirilməsinin qarşısını almaq üçün rus diplomatı Aleksandr Sergeyeviç Qriboyedovla apardığı söhbətlər, Naxçıvanın gələcək taleyi ilə bağlı məsələlər tamaşanın əsas leytmotivini təşkil edir.

Tamaşada Ehsan xanla yanaşı, Abbasqulu ağa Bakıxanovun da bədii obrazı diqqəti cəlb edir. Bakıxanov erməni fitnələrinin qarşısını almaq üçün Ehsan xana çıxış yolu tapmaqda kömək edir. “Ehsan xan Kəngərli” tamaşasında dövrün ictimai-siyasi hadisələri faktlarla səhnəyə gətirilir ki, bu da tamaşaçını cəlb edir.

Bu maraqlı tamaşanın elmi məsləhətçisi akademik İsmayıl Hacıyev, quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur. Tamaşada professional aktyor heyəti təmsil olunur.

Tamaşanın sonunda teatrsevərlər əsərin müəllifini və yaradıcı kollektivi alqışlarla qarşılayıblar.

**Əli RZAYEV**

## Vəzifələr icra olunur



***Bu gün Naxçıvanın tarixi, mədəniyyəti, elmi-ədəbi mühiti dərindən öyrənilir, sanballı tədqiqat materialları nəşr olunur. Bu dəyərli mənbələrin qorunması və təbliği, gələcək nəsillərə çatdırılması vacib məsələdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin fəaliyyəti, bu mənada, mühüm əhəmiyyət daşıyır.***

2019-cu ilin yanvar və fevral aylarında Naxçıvanşünaslıq Mərkəzinə daxil olmuş çap və arxiv materialları komplektləşdirilərək müvafiq fondlarda yerləşdirilmişdir. Həmin materialların 33-nü kitab, 48-ni jurnal, 9-nu buklet, 24-nü arxiv sənədləri təşkil edir. Eyni zamanda Biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsində mərkəzə daxil olmuş qəzet və jurnallardan naxçıvanşünaslığa dair 93 məqalə seçilərək kartotekalara daxil edilmiş, mərkəzin skaner otağında 16 kitabın surəti köçürülərək elektron forması yaradılmışdır.



Mərkəzin dövlət orqanları tərəfindən nəşr olunan çap materialları fondunda görkəmli mütəfəkkir Nemətullah Naxçıvani, tanınmış rəssam İbrahim Səfiyev və qafqazşünas alim Rudolf İvanovun kitablarından ibarət sərgi yaradılmışdır. Həmçinin 2018-ci ildə nəşr olunmuş kitabların, sənədli filmlərin və “Nemətullah Naxçıvani: taleyi və sənəti” kitabının təqdimatı olmuş, “Naxçıvanın muxtariyyəti qətiyyət və mübarizənin qələbəsidir”, “Görkəmli yazıçı və dramaturq Cəlil Məmmədquluzadə” mövzularında açıq dərslər keçilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi***

## Ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələr icra olunur. Qeyd olunan məsələ ilə bağlı tədbirlər, monitorinqlər və intellektual oyunlar keçirilir, muzeylərə ekskursiyalar təşkil olunur.*

Ötən ay Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 3 uşaq müəssisəsində monitorinq aparılmış, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 3714 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülmüş, 4 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmiş, Heydər Əliyev adına tam orta məktəbdə sağlamlıq imkanları məhdud uşaqlarla tolerant mühitin yaradılması ilə bağlı valideynlər, məktəb direktoru və psixoloqları ilə görüş keçirilmişdir. Valideyn himayəsindən məhrum olmuş 1 uşağın uçotu aparılmış, Naxçıvan şəhərində fəaliyyət göstərən 2 uşaq bağçasında “Ağıllı uşaq” intellektual oyunu keçirilmiş, iştirak edən və qalib olan uşaqlara diplom və fəxri fərmanlar verilmişdir.

Fevral ayında aztəminatlı ailələrdən olan 3 qadının peşə kurslarına cəlb olunması, müraciət etmiş 7 qadının isə işlə təmin olunması üçün məlumatlar aid orqanlara göndərilmişdir. Babək rayonunun Nehrəm kəndində “Reproduktiv sağlamlıq və ailə dəyərləri” mövzusunda tədbir keçirilmiş, 205 maarifləndirici broşür paylanılmışdır. Həmçinin aztəminatlı ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılmış, bir ailəyə müvafiq köməklik göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Nemətullah Naxçıvani irsinin tədqiqi və təbliği istiqamətində işlər davam etdirilir

***AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında” 2018-ci il 29 oktyabr tarixli Sərəncamının icrası istiqamətində silsilə tədbirlər davam etdirilir.***

Bu günlərdə AMEA Naxçıvan Bölməsində olan Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz Nemətullah Naxçıvaninin Türkiyə kitabxanalarında saxlanılan 12 əlyazmasının nüsxəsinin elektron variantını bölməyə təqdim edib.

Görüş zamanı bölmənin sədri, akademik İsmayıl Hacıyev alimin irsinin tədqiqi və nəşri istiqamətində görülən işlər, “Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani” mövzusunda beynəlxalq konfransın keçiriləcəyi haqqında qonağa məlumat verib.

Görüşdə Naxçıvanla əlaqədar mühüm tarixi sənədlərin qardaş ölkənin arxiv və kitabxanalarından əldə edilməsi və elmi araşdırmalara cəlb olunmasının zəruriliyi vurğulanıb.

Sonra Nemətullah Naxçıvaninin “Əl-Fəvatih-Ül-İlahiyyə-Vəl-Məfatih-Ül-Qeybiyyə” (“Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi”) kitabının birinci cildi, ikicildlik “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” və “Nemətullah Naxçıvani: Taleyi və sənəti” kitabları qonağa hədiyyə olunub.

Baş konsul isə Türkiyə Baş Nazirliyinin Dövlət Arxivi tərəfindən hazırlanan “Osmanlı arxiv sənədlərində Naxçıvan” kitabını bölməyə təqdim edib.

Qeyd edək ki, silsilə tədbirlər çərçivəsində AMEA Naxçıvan Bölməsində görkəmli alim Nemətullah Naxçıvaninin “Əl-Fəvatih-Ül-İlahiyyə-Vəl-Məfatih-Ül-Qeybiyyə” üçcildlik əsərinin birinci cildinin təqdimatı da keçirilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## “Novruz qatarı” Ordubada yola düşəcək

*Martın 21-də Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin birgə təşkilatçılığı ilə Novruz bayramı münasibətilə gənclərin qatarla Ordubad rayonuna ekskursiyası təşkil olunacaq.*

“Novruz qatarı” adlanan ekskursiyada gənclər üçün yolboyu qatarda Novruz bayramının simvolu olan oyunlar təşkil olunacaq, müxtəlif yarışlar keçiriləcək, musiqi nömrələri səsləndiriləcəkdir. Novruz qatarı ekskursiyasında 3 müasirtipli sərnişin vaqonu hazırlanaraq Naxçıvan-Ordubad-Naxçıvan istiqamətində xəttə buraxılacaq. Vaqonlarda sərnişinlərə nümunəvi xidmət göstərilməsi məqsədilə kupelərdə çay süfrəsi təşkil ediləcək, müxtəlif bayram şirniyyatları veriləcək və əlavə olaraq vaqonların kupeləri Novruz bayramına məxsus atributlarla bəzədiləcək.

Ordubad rayonunun gənclərinin də qoşulacağı ekskursiyada gənclər əvvəlcə rayon ərazisindəki muzeylərlə tanış olacaq, rayon mərkəzində hazırlanmış bayram şənliyində iştirak edəcəklər.

Ekskursiyanın təşkil olunmasında əsas məqsəd Naxçıvanda fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan və dərslərində müvəffəqiyyət qazanan tələbələrin Novruz bayramı tətilində asudə vaxtlarının mənalı təşkili, onların Ordubad rayonunda keçirilən el şənliklərində iştirakının təmin edilməsidir. Həmçinin Ordubadda turizmin təbliği və bu ekskursiya vasitəsilə ictimai nəqliyyat növü olan dəmir yolundan istifadə edilməsinə marağın artırılmasıdır.

Qeyd edək ki, bir gün davam edəcək ekskursiyada 120 gəncin iştirakı nəzərdə tutulub. Ekskursiyada iştirak etmək istəyən 16-29 yaş arası gənclər internet üzərindən qeydiyyatdan keçməlidirlər. Martın 15-də Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən ekskursiyada iştirak edəcək gənclərin adları açıqlanacaqdır.

**Pərviz HACILI**

## Doktorant və dissertantlarla görüş



*Naxçıvan Dövlət Universitetində 27 mart – Elm günü ərəfəsində doktorant və dissertantlarla görüş olub.*

Tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda “Elm günü”nün təsis edilməsi haqqında 2018-ci il 9 aprel tarixli Sərəncamının dövlət başçısının Azərbaycan elminə göstərdiyi diqqət və qayğı ilə yanaşı, həm də onun elm amilinin ölkədə hərəkətverici qüvvəyə çevrilməsi istiqamətində həyata keçirdiyi məqsədyönlü dövlət siyasətinin tərkib hissəsi olduğunu qeyd edib. Rektor vurğulayıb ki, 1998-ci ildə universitetdə Dissertasiya Şurasının yaradılması muxtar respublikamızda elmin inkişafına göstərilən qayğının ifadəsidir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, elmin inkişafını daim diqqət mərkəzində saxlayan ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq 2002-ci il avqustun 7-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi Sərəncam imzalayıb. Akademik ötən dövrdə bölmənin uğurlu fəaliyyət göstərdiyini, əməkdaşların 20 qrant, o cümlədən 3 beynəlxalq layihənin qalibi olduğunu, 25 minə yaxın elmi məqalə dərc etdirdiklərini diqqətə çatdırıb.

AMEA Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun professoru, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev doktorant və dissertantlara öz məsləhətlərini verib, qarşıdan gələn əlamətdar gün münasibətilə elm adamlarını təbrik edib.

Sonda dissertantların sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

## Seminar-müşavirə keçirilib

*Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində əhaliyə avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti göstərən sürücülərə lisenziyaların verilməsilə bağlı seminar-müşavirə keçirilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin əməkdaşı Zaur Əliyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 22 oktyabr tarixli Fərmanına uyğun olaraq ötən il noyabrın 1-dən etibarən lisenziyalaşdırılma işlərinə başlanılıb. Bununla əlaqədar ötən müddət ərzində, ümumilikdə, 750-dən artıq sahibkara lisenziya verilib.

Diqqətə çatdırılıb ki, lisenziyanın qüvvədə olma müddəti 1 ildir. Sürücülər avtomobilini texniki baxışdan keçirdikdən sonra Dövlət Nəqliyyat Xidmətinə müraciət edərək lisenziya əldə edə bilərlər.

Sonra sürücüləri maraqlandıran suallar cavablandırılıb, qeydiyyatdan keçən sahibkarlara lisenziya blankları təqdim edilib.

**Nail ƏSGƏROV**

# Məclislərimizin əzəli və əbədi şah təamı HALVA

*Bəşər övladı dünyaya gəldiyi gündən bioloji varlıq olaraq qidalanmağa möhtacdır. Ana südü ilə qanımıza, canımıza hopan bu fizioloji akt bizi böyüdür, dünyanın min bir dadlı təamı ilə əhatə olunuraq fizioloji inkişaf edirik. Ağıl-kamala yetincə dərk etməyə başlayırıq ki, yemək dadımlıq-doyumluq olduğu kimi, həm də duyumluqdur! Necə deyərlər, qarnımız üçün deyil, qədrimiz üçündür. Halva kimi...*

*Ta qədimdən bu günədək Şərq xalqlarının süfrəsində yer alan bu təam çeşidindən asılı olmayaraq, eyni xammaldan – babamız Adəmin tapdığı sünbül dənəsindən üyüdülmüş undan və müqəddəs torpağın yetirdiyi meyvənin – tutun şirəsindən bişirilir.*

*Səbir ilə halva bişər*

*Ey qora səndən!* – deyib babalarımız!

Anasının fateh oğlu İsgəndərə verdiyi ehsan süfrəsindən tutmuş dini təziyələrdə, ata babalarımızın yas mərasimlərində, şəhidlərimiz üçün açılan ehsan süfrələrində halva əzəli şah təamdır. Dünyadan köçən insanın ilk ehsanı olduğu üçün...

Dini inancda "Şami-qəriban" deyilən bir gecə var. İnsanın dünyasını dəyişib qəbir evinə köçən günün axşamı əlüstü çox cüzi miqdar unla halva çalıb evdəkilərə dadızdırar, qalanını isə cavan oğul-uşaq aparıb mərhumun qəbri üstə qoyar ki, qurd-quş yesin, ehsan olsun. Azərbaycan milli təfəkküründə daşlaşmış bu adət doğma Naxçıvanımızda – xüsusi olaraq Şərur düzünün bütün kəndlərində sadə şirin yemək olan halvaya saygı və ehtiram hissi aşıladıb. Sadə buğda unu, tut bəkməzi və inək yağı ilə qovurulub bişirilən bu şirin nemət doyumluq üçün yox, duyumluq üçün süfrəyə verilib.

Yas mərasimlərindən söz düşmüşkən, insanların həyat səviyyəsi, zamanın tələbi ilə mərasim adət-ənənələrimiz get-gedə təkmilləşərək alqışlanmağa layiq dərəcədə sadələşmişdir. Əzizini itirmiş yas sahibini həm də maddi çətinliklə üz-üzə qoyan, beş gün, yeddi gün, hətta qırxına qədər neçə cür – sadalamaq istəmirəm, qazan-qazan xörəklər, neçə kisə unun lavaşı, neçə heyvanın, malın əti, yağı, düyüsü! Üstəgəl, adamların canlı fəaliyyətdən ayırıb havaya sovurduqları qızıl kimi vaxt! Bütün bunlar haqlı olaraq tarixə qovuşub.

Halva isə əsrlər bundan əvvəl olduğu kimi, bu gün də məclislərimizin əzəli şah təamıdır. Məclisin üçüncü günü halva bişirilib süfrəyə qoyulursa, bu, yas mərasiminin xətm olunmasına işarədir, sanki bir stəkan çayla bir loxma halva yemək mərhumun ruhuna hörmət əlaməti, eyni zamanda neçə günlük acılı, hüznlü ovqata bir şirinliklə son qoymaq deməkdir...

Eşitmişəm, görmüşəm və bu gün də şahidiyəm ki, halva ancaq yenicə dünyasını dəyişənlər üçün yox, ildönümlərində, müqəddəs bayramlarda, hətta ehsan olaraq bişirilib inanc yerimiz olan pirlərdə, ziyarətgahlarda paylanır. Qürbətdə yaşayan cavan övladlar da Vətənə gələndə ocaqdan köçmüş əzizlərinin ruhu xatirinə halva bişirtdirib ehsan edirlər. Kənd camaatına, əsgərlərimizə, xəstəxanada yatanlara, ahıllar evinin sakinlərinə, uşaq evlərinə. Təqdirəlayiqdir, deyilmi?! Bu şirin nemətdən danışdıqca xəyal məni uşaqlığımın halva kimi şipşirin, halva ətirli, halva bərəkətli, atalı-analı günlərinə qanadlandırdı...

Bayram ayı girər-girməz sevincimizin həddi-hüdudu daşardı. İlin axır çərşənbəsində tonqal yandırmaq üçün çör-çöp toplayar, yandırıb göyə atmaq üçün şar-lopa düzəldər, anamın öz əlləri ilə tutub payızdan bayrama saxladığı kəhrəba kimi sapsarı inək yağından bişirəcəyi halvanın, plovun ətri ilə nəfəs alıb, gecəni səhər edərdik. Anam dəyirmanda üyüdülmüş buğda ununa süd çiləyərək umac ovardı, rəngi çönüb qırmızıya çalana qədər. Umacı əvvəl şadaradan (irigözlü ələk) sonra xəlbirdən (bir az narıngözlü ələk) ələyib ayrı-ayrı üç süfrənin üstünə yayaraq axşamdan səhərə qədər saxlayar, səhər ocaq üstündə tiyan qazanda yağı dağ edib əvvəl iri umacı bir az qovurandan sonra yerdə qalan narın payı əlavə edər, qovurub qızarana yaxın axırıncı – un kimi umacı da qarışdırıb qovurardı. Sonra öz tutumuzdan bişirib saxladığı bəkməzdən hazırladığı şərbəti qazana töküb umac yumşalıb özüllənənə qədər qaynadıb qazanı ocaqdan düşürər, isti-isti qablara çəkərdi. Əsl bayram bu idi. Sadə kəndli ailəsinin öz təsərrüfatında yetirib-bitirdiyi məhsuldan həvəslə bişirib, balalarına yedirtdiyi dadlı nemət, şipşirin din-bərəkət olan halva. Anam qazandakı halvanın bir hissəsini pay-pay lavaşın arasına büküb bir neçə evə – qohum-qonşuya göndərərdi. Həvəslə paylardıq halvaları, axı babalarımızın, nənələrimizin ehsanı idi. Halvanın qabını qaytaran ev yiyəsindən (bu qabı, adətən, yumamış ehsan sahibinə qaytararlar – bu da bir adətdir, inancdır) ağızdolusu "Allah qəbul eləsin, Allah rəhmət eləsin!" – sözlərini eşidəcəkdik axı. Halvanın qalan hissəsini anam yığcam bir qaba yığıb bayramdan sonraya saxlayardı. Qaldıqca bal kimi şəhdi çıxan halva yazağzı əkin-biçin üçün torpaqda çalışan ata-anamın süfrəsinin bərəkəti, dizinin hərəkəti idi...

Deyəsən, çox təfərrüata vardım... Bu təkcə bizim ailədə deyildi. İlaxır günü dərsdən çıxıb evə gələndə, kəndboyu hər məhəllədən keçəndə bütün evlərdən qovurulmuş umacın ətri gəlirdi. Aləm cənnət ətirli şirin halva dadırdı elə bil. Bu günlər anaların qadınlıq ustalığı nümayiş olunurdu. Kimisinə "Afərin!", kimisinə də "Adını arvad qoyub, bişirdiyi halvaya bax!", – deyərdilər. İnsafən, anamın gözəl halva bişirdiyini etiraf edərdilər. Anamın heç kəsdə tapmadığım əlinin dadından danışanda onun bişirdiyi dadı damağımdan getməyən halvalar da yadıma düşür.



***Tərhalva.*** Dövrün toxgözlülüyündənmi, yemək çeşidlərinin az və bəsitliyindənmi, insanların həris dərəcədə tamahkar olmamasındanmı idi ki, qonaq gedəndə də heç kəs küsməzdi, nə bişirdilər, nə yedik. Məsələn, ən əziz qohumlarımız bizə gələndə anam tərhalva bişirərdi. Əlüstü tut bəkməzinə bir az su qatıb duruladşırar, həmin şərbətə un qatıb horra eləyər, dəmir qazanda dağ olmuş yağın içinə tökərək qaynadardı. Pıqqapıq qaynayıb qatılaşandan sonra elə ki yağı üzünə çıxdı, deməli, hazırdı. Çox dadlı yemək idi. Xalalarım deyərdi ki, tərhalvanı biz bişirə bilmirik, bacım gözəl bişirir, çox tu-



tumlu, faydalı olur.

Klassik halvanı bu gün də məişətimizdəki yeməklərdən biri kimi sevir, bişiririk. Hərçənd ki hər adamın bişirdiyi halva sevilmir. Tərhalvanı yetmişinci illərdə görüb yediyimizdir. Çox istərdim, bu halva bu gün də süfrələrimizi bəzəsin, gənc nəsil onu sevə-sevə yesin, unutmasın.

***Səməni halvası.*** İndiki nəslin, demək olar ki, üzünü görüb, dadını dadmadığı, faydasından məhrum olduğu bir halva da var – səməni halvası. 90-cı illərdə xəstəxanada baş tibb bacısı işləyən zaman bir dəfə hörmətli cərrah, mərhum Cabbar həkim beşdəqiqəlikdə hamıya müraciətlə soruşdu: "Səməni halvası nədir, kim bişirə bilir?" Heç kəs bilmədi. Mən bilirdim bişirilməyini.

Cabbar həkim israrla soruşdu: "Niyə bişirmirsiniz?" Bilirsiniz, necə dadlı və faydalıdır? Milli mətbəximizin bu ləziz nümunələrinin unudulmasına yol verməyək gərək. İndiki nəsil də dadsın, tanısın".

60 ilə yaxın bir zaman bundan əvvəl bizim ailədə səməni halvası bişirildiyi yadımdadır. Yediyim nemətlərin heç birinə bənzəməyən o dad, hələ də damağımdadır.

Dini inanca görə, səməni hər ocaqda göyərməz. Səməni halvasının qazanı içki içilməyən, halal nutvəli ailənin ocağında asılmalıdır. Bir bayram ayında bizim ocaqda da qazan asılıb, səməni halvası bişirilib. Fevralın ortasında anam bir xeyli buğdanı dəyirmanlıq edib yudu, tər-təmiz yuduğu taxtanın üstünə yayıb pəncərələrin qabağına qoyaraq üstünə təmiz tənzif sərdi. Hər gün tənzifin üstündən su çilədi. Martın əvvəlinə qədər buğda çırtıb göyərdi. Bu işdə anamın şəriki və köməkçisi olan 4-5 arvad göyərmiş buğdalar çox yaşıllaşmamış onu taxta ləyəndə və həvəngdəstədə yaxşıca əzib suyunu çıxardılar. Həmin suyu bez torbadan süzüb, bir az su ilə qarışdırıb un qatarаq duru horra eləyəndən sonra təndirin üstündə qaynatmağa başladılar. Bu horranı müntəzəm olaraq gərək taxta qaşıqla qarışdırasan ki, dibi yanmasın, qatılaşıb qırmızı rəng alanda səməni halvasının qazanını yerə düşürdülər. İlahi, bu necə daddır? Bu dadı harda tapmaq olar?! Hər gün səhər-axşam qidalandığımız çörəyin rüşeymindən, daha doğrusu, ilk cücərti rüşeym ilə yetkinin təmiz su ilə qarışıb müqəddəs odda bişməsindən yaranan bir təam. Öz şirini, öz yağı, öz duzu ilə şirin olan bir dad.

Səməni halvası hazır olduqda ehsan edilir. Hərdən fikirləşirəm ki, indiki zamanda səməni halvası bişirib, ailə təsərrüfatı üçün səciyyəvi bir məhsul olaraq onu bazara da çıxarmaq olar.

***Dağdağan halvası.*** Əslən Ordubad rayonundan olan rəhmətlik qayınanam Səkinə xanımın əlindən dadmışam bu halvanı. Dağdağan çox möhkəm oduncaqlı, quraqlıq yerlərdə yabanı bitən, uzunömürlü, müqəddəs sayılan ağacdır. Hətta onun balaca parçasını uşaqların üstünə asırlar ki, uşağa nəzər dəyməsin, xəstələnməsin. Dağdağanın noxuddan bir az iri meyvələrini həvəngdəstədə döyüb un halına salandan sonra su ilə qatıb bərk horra hazırlayaraq dağ olmuş yağa töküb qaynadırlar tez-tez qarışdıra-qarışdıra. Hazır olana yaxın şəkər tozu əlavə edilir.

### *Halva, halva deməklə ağız şirin olmaz*

Eşitmişəm ki, halvaya "qəşəngdir" – deməzlər, halva bişirənə "sağ ol, yaxşı bişirmisən" – deyərlər. Yaxşı bişirmək üçün də gərək özün bu işdə bişəsən. Halvanın yaxşı çıxması üçün umacın ovulmasından, qovurulmasından, yağın, şirənin qədərində vurulmasından, şirəyə qatılmış ədviyyatdan çox şey asılıdır. Mənə qalarsa, ən yaxşı nümunə halva bişirənin ağlı, gözü, əli və təcrübəsidir. Yağı az olsa, halva bir yerə yovuşmaz, dağılar. Şirəsini gərək bir az qaynadıb şərbət halına gətirəsən ki, umacın üstünə tökəndə qaynadıqca açılıb yumşalmasın. Və yaxud şirə qatı olarsa, halva şəkərləşib bərkiyər, yemək olmaz. Bir sözlə, bu işin ustası – halvaçı olasan gərək. Bütün zamanlar üçün nə qədər ki halva süfrələrimizin şah təamıdır, onu bişirən də ehtirama layiqdir. Bəs nə! Halva-halva deməklə ağız şirin olmaz ki! Ömründə bircə dəfə – şəhid oğlunun ehsan halvasından dilinə vurmayan Fatma xanım da tanıdığım ən gözəl halva bişirəndir.



Deyirlər, dünya fatehi İsgəndər ölüm yatağında olanda anasına məktub yazır, vəsiyyət edir ki, böyük ehsan süfrəsi açıb hamını çağırsın və xahiş etsin ki, kimin əzizi ölməyibsə, bu ehsandan yesin. Ana görür ki, ehsana heç kəs əl uzatmadı. Onda öz oğlunun ehsanından yeyir ki, hamı – dərdlilər də yesin...

Qaraçuq kənd sakini Fatma ana da həyatın bu acı həqiqətini dərk edəndən dünyadan vaxtsız köçmüş oğlanlarının ad günlərində, ölüm günlərində, millətimizin ümumxalq hüzn günü – 20 Yanvarda halva bişirib paylayar, özü də halvaya can qoyar, min cür səy qoyar. Fatmanın halvası, necə deyərlər, min ağaclıqdan tanınar.

Bir neçə ay bundan əvvəl Mərənddəki ailə dostlarından Zəhra xanımın pirani atası rəhmətə gedəndə xahiş etdilər ki, halvanı Fatma xanım gedib çalsın. İranlı soydaşlarımız Azərbaycanın əsrlərboyu qoruyub saxladığı bu milli mətbəx nümunəsinə heyran oldular. Burda deyərlər: "Çörəyi ver çörəkçiyə, unu, yağı, bəkməzi halvaçıya!"

### *Halva xalq deyimlərimizdə*

Şifahi xalq ədəbiyyatında ulu tariximiz, mədəniyyətimiz qədər yaşı olan ləziz, əziz təam halva da özünə yaraşan bu titulдan – xalq deyimlərindən xali deyil.

*Halva, halva deməklə ağız şirin olmaz.* Demək bu təamın bişirilib ərsəyə gətirilməsi üçün əziyyət çəkməyin zərurətini anladır. Yəni arzuladığına çatmaq üçün zəhmətə qatlaşmalı, fədakarlıq göstərməlisən.

*Səbir elə halva bişər, ey qora səndən!* Gərək səbirlə zəhmət çəkib əkib-becərəsən, qora yetişib üzüm ola, bəkməz bişirəsən ki, ondan da halva bişə. Bir işin uğurlu bəhrəsinə nail olmaq üçün zəhmətkeşlik, əzmkarlıq və təmkin tələb olunduğuna işarədir.

*Halva-plov elədilər.* Bir ərzaq məhsulunu iştaha ilə tez yeyib qurtarmaq deməkdir, yəni halva süfrədə qalmaz, israf olmaz.

*Niyə bu halvadı sənin üçün?* İşin çətinliyini nəzərə çarpdırır ki, halva deyil ki, dərhal yeyəsən!

*Səninlə danışan gərək bir batman bal halvası yeyə.* Çox qüvvəli, tutumlu bal halvası yesən, gücün çatar ki, dilbilməzi başa salasan!

*Nə var, halva paylayırıq?* Halvanın ehsanlıq olmasını ifadə edir. Adamlar havayı olaraq qaçıb bir yerə yığışanda deyərlər.

***Halvaqapan.*** Yaşlı kişinin cavan qadından sondan sona doğulan övladına deyərlər. Nə baş verdiyini dərk etmədən yenicə vəfat etmiş atasının halvasını əldən qapıb yeyən dilbilməz uşaq mənasını verir.

Nizami Gəncəvi "Sevmədiyin qadınla ömür sürmək quru çörəklə şor-halva yemək kimidir", – deyib.

Məqsədim bu sadə, dadlı, bərəkətli, şirin nemətləri xatırlamaqla milli mətbəximizdə olub da yaddan çıxan, az istifadə olunan təamların faydasını gənc nəslə çatdırmaqdır. Bir daha bu qənaətə gəldim ki, zaman-zaman xalq deyimində, xalq duyumunda da əzizləziz sayılan halva haqlı olaraq süfrələrimizin şah təamıdır.

**Nubar ABDULLAYEVA**

## Bu il Novruz bayramı Naxçıvanqalada qeyd olunacaq



Yurdumuza Bahar gəlir. Bu münasibətlə xalqımızın qeyd etdiyi Novruz bayramı hər il Naxçıvanda xüsusi təntənə ilə keçirilir. Novruz bayramı bu il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində qeyd olunacaq.

Bayram şənliyi martın 19-da saat $11^{00}$-da başlayacaq. Şənliklər çərçivəsində xalq yaradıcılığı və folklor nümunələrimiz, milli musiqi və yallılarımız, rəngarəng konsert proqramları, teatr tamaşalarından səhnəciklər şənlik iştirakçılarına təqdim ediləcək. Burada həmçinin milli mətbəx nümunələrimiz də bayram tədbirinin iştirakçılarına təklif ediləcək.

***"Nuhçıxan" İnformasiya Agentliyi***

## ELAN

Naxçıvan şəhərindəki Mərkəzi bazarda və rayon mərkəzlərində martın 16-dan 24-dək Novruz yarmarkası keçiriləcəkdir. Yarmarkaya muxtar respublikadakı ailə təsərrüfatları, sənaye və istehsal müəssisələri tərəfindən müxtəlif çeşidli bol məhsullar çıxarılacaq.

Muxtar respublika əhalisini bayram yarmarkasına dəvət edirik!

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri***

### *İtmişdir*

Türkiyə vətəndaşı Aynur Eroğlunun adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 202